**Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi haqqında Əsasnamə" və "Azərbaycan Respublikası daxili işlər orqanlarının embleminin təsviri" **təsdiq edilsin** (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 iyun 2004-cü il
82

Azərbaycan Respublikası Prezidentinin
2004-cü il 30 iyun tarixli 82 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi haqqında**

**ƏSASNAMƏ**

1. Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi daxili işlər orqanlarının rəmzidir. O, Azərbaycan Respublikası daxili işlər orqanlarının hər bir əməkdaşına ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması üzrə öz xidməti vəzifələrini vicdanla, layiqincə yerinə yetirmək borcunu xatırladır.

2. Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi daxili işlər orqanları əməkdaşlarının, həmçinin silah, xüsusi vasitə, texnika və digər əmlakın Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə mənsubiyyətini bildirir.

3. Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin müəyyən etdiyi qaydada daxili işlər orqanlarının blanklarında, inzibati binalarının girəcəklərində, fərqlənmə və əməkdaşların fərqləndirmə nişanlarında, geyim formasında yerləşdirilir.

4. Azərbaycan Respublikası daxili işlər orqanlarının embleminin təsvirinin istifadəsinə aşağıdakı hallarda yol verilir:

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin çap məhsullarında, kino, video və fotomateriallarında;

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sifarişi ilə hazırlanan reklam-informasiya məhsullarında (prospektlər, bukletlər, təqvimlər, nişanlar, vımpellər, saatlar, medalyonlar, dəftərxana ləvazimatları və digər məhsullar).

Azərbaycan Respublikası Prezidentinin
2004-cü il 30 iyun tarixli 82 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası daxili işlər orqanlarının embleminin**

**TƏSVİRİ**

Azərbaycan Respublikası daxili işlər orqanlarının embleminin əsas hissəsi şaquli yerləşmiş, yuxarı tərəfinin küncləri çevrə ilə kəsilmiş, üfüqi vəziyyətdə olan qövslə əhatə olunmuş, aşağı hissəsi iti bucaq olan qızılı rəngli qalxandır. Qalxanın eni üzrə ən uzaq nöqtələr arasındakı məsafə hündürlüyün 3/4 hissəsini təşkil edir.

Qalxanın arxasına tiyələri aşağı baxan, bir-birinə çarpazlaşdırılmış vəziyyətdə qızılı rəngli iki qılınc bərkidilmişdir.

Qalxanın ortasında Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuşdur.




Qalxanın dövrəsi bütün perimetri boyunca qabartma üsulu ilə lentlə əhatə olunmuş və lentin üzərinə eyni üsulla səkkiz nöqtə bərkidilmişdir. Lentin yuxarısında qırmızı rəngli hərflərlə "DİN" akronimi yazılmışdır.

Lentin eni qalxanın eni üzrə ən uzaq nöqtələrinin bir-birindən məsafəsinin 1/6 hissəsini təşkil edir.